AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Əmək müqaviləsi ilə rəsmiləşdirmədən muzdlu işçi cəlb edərək fəaliyyət göstərirsiniz?

## O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən...

❗ **Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən** işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların **gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə** işəgötürənə hər bir belə şəxs üzrə bu cür hallarda təqvim ili ərzində:

- **birinci dəfə** yol verdikdə **2.000 manat**;
- **ikinci dəfə** yol verdikdə **4.000 manat**;
- **üç və daha çox dəfə** yol verdikdə **6.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir.

✱ Xatırladırıq ki, göstərilən maliyyə sanksiyası 2019-cu il yanvarın 1-dən 1 il müddətində belə hala birinci dəfə yol verildikdə vergi orqanı tərəfindən rəsmi (yazılı) xəbərdarlıq edildikdən sonra həyata keçirilən vergi nəzarəti tədbirləri zamanı tətbiq olunur.

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

## Əlavə olaraq bilməlisiniz ki...

- Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək**, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək**, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda cərimə edilir.
- Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən **xeyli sayda** (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə **7.000 manatdan 10.000 manatadək** miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **azadlığın məhdudlaşdırılması** və ya **azadlıqdan məhrumetmə** ilə cəzalandırılır (bu əməli törətmiş şəxs Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada işçiləri ilə əmək müqaviləsi bağladıqda və dövlət büdcəsinə ödəməkdən yayındırılmış vergiləri və məcburi dövlət sosial sığorta haqlarını tamamilə ödədikdə, yalnız bir dəfə cinayət məsuliyyətindən azad olunur). Göstərilən əməllər **təkrar törədildikdə** isə **3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.

Vergi qanunvericiliyinin tələbləri ilə bağlı əlavə məlumatı www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.